## Azərbaycan dili

1. Verilənlərdən hansılar nəticə ola bilər?

| Səbəb | Nəticə |
|---|---|
| İsim sifətin xüsusiyyətini daşıyır. | ............................... |

*1. Dərəcə əlaməti qazanır.*
*2. Başqa bir sözə aid təyin vəzifəsində çıxış edir.*
*3. İsmin suallarına cavab verə bilmir.*
*4. Morfoloji dəyişikliyə məruz qalır.*
*5. Ümumi qrammatik mənasına görə isim olaraq qalır.*

A) 1, 2, 3 B) 3, 4, 5 C) 2, 3, 5
D) 1, 2, 4 E) 1, 4, 5

2. Hansı cümlədə qeyri-müəyyən və müəyyən yiyəlik halda olan isimlər işlənmişdir?
A) Dağların köysündə qar nişanası.
B) Gül üstə görünür xar nişanası.
C) Ölürəm qəlbimdə yar nişanası.
D) Gözüm yolda, intizarda yetmədi. (*A.Ələsgər*)
E) Xumar-xumar baxmaq göz qaydasıdır. (*M.P.Vaqif*)

3. "*Çəkisizlikdə*" sözü ilə bağlı ***yanlış*** fikirləri müəyyən edin.
1. Kökü isimdir.
2. Sifətdən düzələn isimdir.
3. Qrammatik şəkilçi yoxdur.
4. Yazılışı və deyilişində bir fərq var.
5.  sxeminə uyğundur.

A) 1, 2, 4 B) 2, 4, 5 C) 1, 3, 5
D) 1, 3, 4 E) 2, 3, 4

4. Nitq hissələrinə aidlik və quruluş baxımından sual işarəsinin yerinə hansı söz yazıla bilər?




A) arıq B) barışıq C) bacarıq
D) bölük E) qabarıq

5. Verilmiş şəkilçilərdən biri sifət düzəldə ***bilmir***:
A) -kı⁴ B) -lıq⁴ C) -an²
D) -ınc⁴ E) -ma²

6. Verilmiş xüsusiyyətlərə malik sayları müəyyən edin.
- *Yazılışı və deyilişi fərqlənir.*
- *Miqdar sayıdır*
- *Sonra gələn isim təkdə və cəmdə işlənir.*

1. səkkizinci 2. doqquz 3. yüzlərcə
4. onlarla 5. yeddi

A) 1, 2 B) 3, 4 C) 3, 5
D) 2, 5 E) 1, 4

7. Hansı işarə əvəzliyindən sonra vergül qoyular?
A) O həmin adamdır.
B) O bizi hörmətlə qarşılayıb evə apardı.
C) Bu alimin fikirləri mənə çox maraqlı gəlirdi.
D) Bu çoxdan axtardığım kitab idi.
E) O bu fikirlərə hələ münasibət bildirməyib.

8. Hansı qeyri-müəyyən əvəzlik cəm şəkilçisi qəbul edə bilir?
A) hər kəs B) filankəs
C) hamı D) hərə
E) hər kim

9. Cümlələrin birində məchul feil işlənmişdir:
A) Düşmən mövqeyinə hücum edildi.
B) Tədbirdə şagirdlərin əl işlərinə baxıldı.
C) Muzeyin təşkilində səliqə-sahmana əməl edildi.
D) Əsgərlərin yeməyinə diqqətlə yanaşılırdı.
E) Sərhəddə sənədlər çox ciddi yoxlanılır.

10. Feilin qrammatik məna növlərinə aid sözləri cədvələ əsasən müəyyən edin.

| Obyekt mübtəda yerində işlənir | Obyektlə subyekt eynidir |
|---|---|
| 1. inanılmaq<br>2. içilmək<br>3. eşitmək | 4. göndərilmək<br>5. döyünmək<br>6. qızınmaq |

A) 2, 5, 6 B) 1, 3, 4 C) 1, 2, 5
D) 3, 4, 6 E) 1, 2, 4

11. "*Onun hərəkətində heç bir inamsızlıq duyulmazdı*" cümləsində feillə bağlı ***yanlış*** fikri müəyyən edin.
A) Düzəltmə feildir.
B) Keçmiş zamandadır.
C) Məchul növdədir.
D) Tərkibində üç qrammatik şəkilçi var.
E) *-dı* "*idi*" hissəciyinin qısaldılmış formasıdır.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

12. "*Nümayişkaranə*" sözü ilə bağlı düzgün fikirləri müəyyən edin.
1. Nitq hissəsinə görə zərfdir.
2. Yarandığı nitq hissəsi ilə kökü ümumi qrammatik mənasına görə eynidir.
3. Sifətdən düzəlib.
4. Tələffüzündə bir uzun səs var.
5.  sxeminə uyğundur.
A) 1, 2, 4 B) 1, 2, 5 C) 1, 3, 5
D) 2, 3, 4 E) 3, 4, 5

13. Eyler-Venn diaqramına görə uyğunluğu müəyyən edin.




a. Sadə feildir.
b. Keçmiş zamandadır.
c. Gələcək zamandadır.
d.  sxeminə uyğundur.
e. Düzəltmə feildir.
A) 1 – b,d; 2 – c,e; 3 – a
B) 1 – b; 2 – c,d; 3 – a
C) 1 – e; 2 – c; 3 – b,d
D) 1 – b,d; 2 – c; 3 – a
E) 1 – a; 2 – c,d; 3 – e

14. Hansı cümlədə feil məlum növdədir və "*idi*" hissəciyinin şəkilçi forması ilə işlənmişdir?
A) Hava yavaş-yavaş açılırdı.
B) Təsadüfə bel bağlayıb aldanmadı.
C) Qonşuya ümid olduq, şamsız qaldıq.
D) Orxan uşaqlarla vidalaşdı.
E) Xaricdə olan dostumla məktublaşırdıq.

15. Sıranı quruluşuna və mənaca növünə görə hansı zərf tamamlaya bilər?
*tamamilə, bütünlüklə, ..............*
A) dəfələrlə B) neçə dəfə
C) xeyli D) hərdən
E) təklikdə

16. Hansı cümlədə zərf və qoşma kimi işlənə bilən zərf işlənmişdir?
A) Səndən başqa biz hər şeyi bölə billik. (M.Araz)
B) Dünəndən bəri cəbhə xəttində bir hərəkətlənmə var idi.
C) Doğru söz acı olar.
D) Dostlarla axşam dəniz kənarında görüşdük.
E) Gözəllikdən əvvəl şeir qoşardım.

17. Cədvələ əsasən düzgün fikirləri müəyyən edin.
- *Leksik şəkilçilər*
- *Qrammatik şəkilçilər*

| ***Ortaq cəhətlərdir.*** | ***Ortaq cəhətlər deyil.*** |
|---|---|
| 1. Yeni leksik mənalı söz yaradır.<br>2. Sözün kökünə qoşulur.<br>3. Söz birləşmələrinin və cümlələrin formalaşmasında mühüm rol oynayır. | 4. Kökün əvvəlinə və sonuna artırılır.<br>5. Əsasən iki və dörd cür yazılır.<br>6. Milli və alınma olur. |

A) 2, 4, 6 B) 1, 3, 5 C) 1, 2, 4
D) 3, 5, 6 E) 1, 4, 5

18. "*Kiçildilmişdir*" sözünün tərkibində işlənib:
A) 1 leksik, 2 qrammatik şəkilçi
B) 2 leksik, 2 qrammatik şəkilçi
C) 2 leksik, 1 qrammatik şəkilçi
D) 3 qrammatik şəkilçi
E) 3 leksik, 1 qrammatik şəkilçi

19. Hansı sözlərin tərkibi  sxeminə uyğundur?
1. istəklilərimiz 2. işlədilmişdir
3. fərqləndirilib 4. yaraşıqlıdırlar
5. ləngidildik 6. görüntüdəkilər
A) 1, 3, 6 B) 2, 3, 4 C) 1, 2, 5
D) 2, 4, 5 E) 3, 4, 6

20. Başlanğıc forması eyni nitq hissəsi olan eyniköklü sözləri müəyyən edin.
A) bağça, bağdakı, bağla(maq)
B) gülüş, gülünc, güldür(mək)
C) düzlük, düzül(mək), düzgünlük
D) qazıl(maq), qazdır(maq), qazan(maq)
E) qorxaq, qorxunc, qorxulu

21. Bəndlərin birində ardıcıl olaraq düzəltmə isim, düzəltmə sifət və düzəltmə feil verilmişdir:
A) sevgili, heyrətləndirici, eşidəndə
B) uçqun, tutqun, közər
C) hesabdar, basqın, darıxmaq
D) yaylaq, bölmə, göyərtə
E) mənlik, əməkdar, danlamaq

22. Orfoepik normaya görə klasteri tamamlayan sözləri müəyyən edin.




1. [maraxnan] 2. [mürəkgəb]
3. [ruhlanmax] 4. [təbiyətşünasdıx]
5. [sehirləməx`]
A) 1, 4, 5 B) 1, 3, 5 C) 2, 3, 5
D) 2, 3, 4 E) 1, 2, 4

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

t.me/Blinkteam1

**Açıq tipli tapşırıqları:**

23. Zərf və digər nitq hissələri kimi işlənə bilən sözləri müəyyən edin.
    1. atüstü 2. dağda 3. bir sıra
    4. az-maz 5. dahiyanə

24. Hansı cümlələrdə *idi, imiş, isə* hissəciklərinin ixtisar forması işlənmişdir?
    1. Yağış dayanmasa, yola çıxmaq təhlükəlidir.
    2. F.Köçərli seminariyada müəllim vəzifəsində çalışmışdır.
    3. Yaralının vəziyyəti getdikcə yaxşılaşırdı.
    4. Kəşfiyyatçılarımız gecə ikən bu mövqedə yerləşməliymiş.
    5. Dəstədən bir xəbər gələrsə, tez mənə məlumat verin.

25. Hansı sözlərin başlanğıc formaları ***yanlış*** göstərilmişdir?
    1. köklənmişdir 2. qovuşdurduq
    3. yüklərimiz 4. dinləmək
    5. bürküdür

26. Hansı cümlələrdə feilin təsriflənməyən formalarına aid bir nümunə var?
    1. Sizin mindiyiniz ən qaçağan atlardan biridir.
    2. O bu fikirlə razılaşıb, amma hələ də tərəddüd edir.
    3. Direktor çıxış edənləri sakitcə dinləyərək öz rəyini bildirdi.
    4. Gördüklərimi uşaqlara danışarkən hamısı heyrətləndi.
    5. Əlinin susması atasını sakitləşdirdi.

27. Uyğunluğu müəyyən edin.
    1. Məsdər işlənmiş cümlə
    2. Feili sifət işlənmiş cümlə
    3. Feili bağlama işlənmiş cümlə
    a. Bu sözləri eşidincə üzündə qayğılı bir ifadə göründü.
    b. Yazacağınız inşanın əvvəlcə planını tutun.
    c. Belə tez qayıtmaqda, yəqin ki, bir məqsədin vardır.
    d. Yol boyunca xeyli maraqlı söhbət etdik.
    e. Dama-dama köynək ona çox yaraşırdı.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

***Mətn***

Amerikada alimlər bir təhqiqat gətirirlər. Yeni doğulmuş 20 uşağı üç həftəlik ailələrindən alaraq iki qrupa ayırırlar. Birinci qrupa standart qidalar verir, ancaq uşaqlara nə təbəssüm edir, nə də sevgi göstərirlər. İkinci qrupa da eyni qidaları verir, amma onlara həm təbəssüm edir, həm də sevgi göstərirlər. Üçüncü həftənin sonunda alimlər sevgi görən uşaqların daha güclü və daha sağlam olduqlarını müşahidə edirlər. Sevgi görməyən uşaqların isə həm zəif, həm də xəstə olduqlarını görürlər. Alimlər bu nəticəyə gəlirlər: "....................................".

28. Altından xətt çəkilmiş cümlədə lazımi düzəliş etməklə (yalnız yanlış məqamlarda) cümləni yenidən yazın.

29. Mətndə çərçivə daxilində verilmiş sözlərin həqiqi və ya məcazi mənada olduğunu müəyyən edin və digər mənada cümlədə işlədin (həqiqidirsə məcazi, məcazidirsə həqiqi).

30. Mətnin məzmunundan çıxış edərək alimlərin hansı nəticəyə gəldiklərini bir cümlə ilə ifadə edin.

t.me/BilikTeam1

## Tarix

31. *Ağcabədi rayonundakı Kamiltəpə yaşayış yerində sümükdən və daşdan düzəldilmiş toxalar, oraq dişləri, çəkic, balta və s. alətlər tapılmışdır.*
Bu tapıntının aid olduğu dövr üçün düzgün fikirləri müəyyən edin:
1. Saxsı qabların hazırlanması
2. İstehsal təsərrüfatının mövcud olması
3. İlkin şəhər mərkəzlərinin yaranması
4. İnsanların əkinçilik və maldarlıq ilə məşğul olması
5. Üçüncü böyük ictimai əmək bölgüsünün yaranması
A) 3,5 B) 1,2 C) 1,2,4
D) 1,3,5 E) 3,4

32. I Toğrul və Orxan qazi üçün ümumi cəhətdir:
A) Sultan titulunun qəbul edilməsi
B) Paytaxtın köçürülməsi
C) Dövlətin dəniz dövlətinə çevrilməsi
D) Ərazinin paşalıq və sancaqlara bölünməsi
E) Bağdadın tutulması

33. Manna və Atropatena dövlətlərinə aid oxşar cəhət:
A) İctimai quruluşuna görə quldar, siyasi quruluşuna görə monarxiya dövləti olmaları
B) Selevki dövlətindən asılılığın qəbul edilməsi
C) Yunan – Makedoniya istilaçılarının varisi olmaları
D) İskit dövləti ilə siyasi münasibətlərin mövcudluğu
E) Romanın Respublika dövründə fəaliyyət göstərmələri

34. I Dünya müharibəsinə aid uyğunluğu müəyyən edin:




A) 2,3 B) 1,4,6 C) 3,5
D) 2,3,5 E) 1,6

35. Rəvvadi və Şəddadi dövlətlərinin mövcud olduğu dövrdə Azərbaycan ərazisində baş *verməyib:*
A) Alan yürüşlərinin baş verməsi
B) Oğuz türklərinin məskunlaşması
C) Tiflisin Şərqi Gürcüstanda ərəb əmirliyin mərkəzinə çevrilməsi
D) Əbüləsvar Şavurun hakimiyyətə gəlməsi
E) Təbriz şəhərində güclü zəlzələnin baş verməsi

36. Uyğunluğu müəyyən edin:

| | | |
|---|---|---|
| A) | Uluqbəy | Bağdadda “Nizamiyyə” mədrəsəsini açmışdı |
| B) | Mahmud Kaşğari | İlk Farmakologiya kitabını yazmışdı |
| C) | Xətib Təbrizi | Ulduz bürclərinin dövri adını vermişdi |
| D) | Nizamülmülk | XIV əsrin əvvəlində Təbrizdə mədrəsə yaradıldı |
| E) | Ömər Xəyyam | Məlikşahın şərəfinə “Cəlali təqvimi” tərtib etmişdi |

37. II Xaçlı yürüşünə aiddir:
A) Təbəriyyə döyüşündə xaçlılar məğlub oldu
B) Konstantinopol ələ keçirildi
C) Mosul hakiminin Edessanı tutmasına cavab olaraq başladı
D) Yürüş qalibiyyətlə yekunlaşdı
E) Səlahəddin Əyyubinin qüvvələri məğlub edildi

38. **Mətn-1**
*Ön Asiyada, Qafqazda və Kiçik Asiyada hələ də müstəqil fəaliyyət göstərən iri feodal malikanələrinə qarşı Ali monqol xaqanlığı tərəfindən mübarizəyə göndərilmiş monqol şahzadəsi Azərbaycanı və Bağdadı istila etdi və Abbasilər xilafəti süquta uğradı.*
**Mətn-2**
*Dərbənddən Azərbaycanda soxulan qüvvələr Təbrizə yaxınlaşdı. Təbrizlilər şəhərin müdafiəsinə qalxdılar. Qızıl Ordu hökmdarı danışıqlar aparmağa məcbur oldu. Tərəflər arasında razılıq əldə edildi. Əhali sülhə inanıb silahı yerə qoydu. Bundan istifadə edən qoşun şəhərdə ciddi dağıntılar törətdi, qarətlər etdi.*

I Mətndə bəhs edilən yürüşdən fərqli olaraq II Mətndə bəhs edilən yürüş üçün xarakterikdir:
1. Azərbaycan Cəlairi dövlətinin tərkibində idi
2. Cəlairilərin Azərbaycandakı hakimiyyətinə son qoyuldu
3. Elxanilər dövləti yarandı
4. Azərbaycan Toxtamış xanın hücumuna məruz qaldı
A) 1,4 B) 2,3 C) 3,4
D) 1,2 E) 1,3

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

39. Hülakülər dövlətinə ***aid deyil:***
A) Canı bəyin yürüşünə məruz qaldı
B) Məhəmməd Olcaytunun dövründə dövlət daha da gücləndi
C) XIV əsrin əvvəlində kəndlilər yaşayış yerinə təhkim edildi
D) Vergi toplanması 3 il müddətinə icarəyə verilirdi
E) Əmir Teymurun yürüşünə məruz qaldı

40. Ağsuvar xan və Mete xaqan üçün oxşar cəhətdir:
A) Çin ordusunun məğlub edilməsi
B) Sasani qüvvələrinin məğlub edilməsi
C) Düşmənə qarşı turan taktikasından istifadə
D) Feodalizm dövründə fəaliyyət göstərmələri
E) Tan süaləsinin himayə edilməsi

41. Aşağıdakı məlumatların heç birinin uyğun *gəlmədiyi* şəhəri müəyyən edin:




-Monqolların 2-ci yürüşündə dağıdılmış bu şəhər 1239-cu ildən bərpa olunmağa başladı
-Elxani vəziri Tacəddin Əlişah tərəfindən məscid tikilmişdir
-Nəsirəddin Tusinin rəhbərliyi ilə rəsədxana tikilmişdir
-Cahanşahın əmri ilə tikilən Göy məscid burada yerləşirdi
-Məsud Davudoğlu tərəfindən memarlıq abidəsi ucaldılmışdı
A) 1 B) 2 C) 3 D) 4 E) 5

42. Eyler – Venn diaqramına əsasən uyğunluğu müəyyən edin:




a. Teymuri qüvvələri ilə mübarizə aparırdı
b. Əsəd qəsəbəsi döyüşündə qalib gəldi
c. Şahrux ilə hərbi ittifaq bağladı
d. Ölümündən sonra Cahanşah taxta çıxdı
e. Alaşkerd döyüşündə məğlub oldu
A) 1-a; 2-b,c; 3-d
B) 1-a,d; 2-b; 3-c,e
C) 1-b; 2-d,e; 3-a
D) 1-e; 2-d; 3-a
E) 1-a,e; 2-c; 3-b

43. Göstərilənlər aiddir:
- *Rus kapitalistləri tərəfindən tikilmişdi*
- *Fəaliyyəti rus alimi D. Mendeleyevin köməyi ilə qaydaya salınmışdı*
A) Suraxanı Neftayırma zavodu
B) C. Məlikovun Bakı ağ neft zavodu
C) Bakı-Tiflis dəmir yolu xətti
D) Şəki İpək fabriki
E) Qalakənd misəritmə və missaflaşdırma zavodu

44. Verilmiş xüsusiyyətlərin aid olduğu qədim dövləti xəritədə müəyyən edin:
- *Ən məşhur tarixçilərindən biri Tit Livi olmuşdur.*
- *V əsrdə Vestqot və Vandallar tərəfindən talan edilmişdir.*




A) 1 B) 2 C) 3 D) 4 E) 5

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

45. Uyğunluğu müəyyən edin:

AXC

| **1.** 1919-cu il | **2.** 1920-ci il |
|---|---|
| **a.** Gürcüstan ilə hərbi müdafiə paktı bağlandı<br>**b.** De-fakto olaraq Paris sülh konfransı tərəfindən tanındı<br>**c.** Milli şura İrəvanın ermənilərə güzəştə gedilməsi qərarını qəbul etdi | **a.** Qacarlar dövləti ilə dostluq haqqında müqavilə bağlandı<br>**b.** Azərbaycan Kommunist partiyası yaradıldı<br>**c.** ABŞ prezidenti Parisdə Azərbaycan nümayəndə heyətini qəbul etdi |

A) 1-a; 2-a,b B) 1-b; 2-a,c
C) 1-a,b; 2-a,b D) 1-c; 2-b
E) 1-b; 2-c

46. Xronoloji ardıcıllığı müəyyən edin:
1. Şumerdə təkərin ixtira edilməsi
2. Şumer şəhər dövlətlərinin Sarqon tərəfindən birləşdirilməsi
3.Misirin hakimiyyət uğrunda müharibələr nəticəsində zəifləməsi
4. I Tutmosun Fələstin və Suriyanı işğal etməsi
A) 2,3,4,1 B) 1,2,3,4
C) 4,1,2,3 D) 3,2,1,4
E) 1,2,4,3

47. Şirvanşahlar dövlətinin XII əsrin ikinci yarısı tarixi üçün xarakterikdir:
A) Səlcuq türkləri ilə dostluq münasibətlərinin bərpa edilməsi
B) Monqol yürüşünə məruz qalması
C) I Fribürzün Şirvanşah titulundan məhrum edilməsi
D) II Axsitanın Hülakülərin vassallığını qəbul etməsi
E) IV Davidin basqınına məruz qaldı

48. Monqolların Mərkəzi Asiyanın işğalını başa çatdırdıqdan sonrakı dövr üçün xarakterikdir:
1. Kalka döyüşündə rus-qıpçaq qoşunlarının məğlub edilməsi
2. Cənubi Çinin tutulması
3. Pekinin tutulması
4. Qaraqorumda qurultay keçirilməsi
5. Qaraqorum şəhərinin paytaxt seçilməsi
A) 1,2,3 B) 1,2 C) 4,5
D) 1,2,4 E) 2,3

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

49. Hadisə - nəticə əlaqələrinin ***doğru*** göstərildiyi bəndləri müəyyən edin:

| № | Hadisə | Nəticə |
|---|---|---|
| 1 | Teymurun 1398-ci il Hindistan səfəri | Dehli sultanlığının süquta uğraması |
| 2 | Batı xanın 1241-ci ildə qələbə qazanması | Polşa-alman və macarların məğlub edilməsi |
| 3 | Toxtamış xanın Cənubi Qafqaz və Mərkəzi Asiyaya yürüşlər təşkil etməsi | Teymurun Qızıl Ordu ilə müharibələrə başlaması |
| 4 | Özbək xanın islam dinini rəsmi dövlət dini elan etməsi | Qazan, Həştərxan, Krım xanlıqlarının Qızıl Ordudan ayrılması |
| 5 | Sərbədarilər hərəkatının başlanması | Teymurilər dövlətinin zəifləməsi |

A) 2,4 B) 3,5 C) 2,3
D) 1,4 E) 1,5

50. Kulikovo və Terek döyüşləri üçün oxşar cəhətdir:
A) Qızıl Ordu ilə Teymurilər dövləti arasında baş vermişdir
B) XIV əsrin birinci yarısında baş vermişdir
C) Qızıl Ordu məğlubiyyətə uğradı
D) Əmir Teymur qalib gəldi
E) Moskva knyazlığı məğlub edildi

51. Şeyx Cüneyddən fərqli olaraq Şeyx Heydər:
1. Uzun Həsən tərəfindən ordenin irsi taxtına oturduldu.
2. Samur döyüşündə məğlub oldu
3. Şirvanşah – Ağqoyunlu qüvvələrinə məğlub oldu
4. Cahanşahın tələbi ilə Ərdəbili tərk etdi
A) 1,3 B) 2,4 C) 1,2
D) 2,3 E) 1,4

52. IX - XI əsrlərdə Azərbaycanda torpaq mülkiyyət formasında edilmiş dəyişiklik:
A) Dastakert və xostaq adlanan torpaq mülkiyyəti yarandı
B) Vəqf torpaqlarının icarəyə verilməsinə başlandı
C) Dövlət torpaqları divan və xalisə torpaqlarına bölündü
D) Gezit adlanan can vergisi cizyə ilə əvəz edildi
E) Xaraq adlanan torpaq vergisi məhsulla alınmağa başladı

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

**Açıq tipli test tapşırıqları:**

53. "Yüzillik müharibə" illərinə aiddir:
1. İngiltərədə "Böyük azadlıqlar xartiyası"nın imzalanması
2. Fransada kilsə torpaqlarından vergi alınmağa başlanması
3. İngiltərə və Avropanı vəba epidemiyası bürüməsi
4. İngiltərədə mütləq monarxiyanın yaranması prosesinin başlanması
5. Fransada kral tərəfindən daimi qoşun yaradıldı və toplardan istifadəyə başlandı

54. Dehli sultanlığında Məmlüklər sülaləsinin hakimiyyəti dövrünə ***aid deyil:***
1. Monqol hücumlarına qarşı mübarizə aparılırdı
2. Raziyə sultanın hakimiyyətə gəlməsi
3. Zəmindarlardan alınan torpaqlar kəndlilərə icarəyə verildi
4. Sultan Əlaəddin Cənubi Hindistanı tabe etdi

55. AXC-nin Gəncə dövrünə aiddir:
1. Dövlət bayrağı haqqında qərar qəbul edildi
2. Müsəlman korpusu Əlahiddə Azərbaycan Korpusu adlandırıldı
3. Azərbaycan parlamenti fəaliyyətə başladı
4. Naxçıvan general - qubernatorluğu yaradıldı

56. Ağqoyunlu dövlətinin mövcud olduğu dövrə uyğun gəlir:
1. Trabzon krallığının süqut etməsi
2. Şəməsi döyüşünün baş verməsi
3. Kənqaş adlanan qapalı məşvərət orqanının fəaliyyəti
4. Dərbəndilər sülaləsinin fəaliyyətinin sona çatması

57. Uyğunluğu müəyyən edin:
1. I Toğrul
2. Alp Arslan
3. Məlikşah
a. Paytaxt Reydən köçürüldü
b. Konya və Ankara şəhərləri tutuldu
c. Tiflis, Ani, Qars şəhərləri tutuldu
d. "Şərqin və Qərbin hökmdarı" elan edildi
e. Dövlətin ərazi bütövlüyü pozularaq iki yerə parçalandı

**Sizə təqdim olunmuş mənbə əsasında tapşırıqları tarixi biliklərinizə əsasən *Cavab vərəqində* cavablandırın.**

Heydərin Şirvana hücumu zamanı Mahmudabad şəhərində ona müqavimət göstərmiş əhali qızğın döyüşdən sonra məğlub edilmişdi. Lakin Heydər bu qələbədən sonra ehtiyat edərək, Şamaxıya deyil, Dərbəndə hücumu qərara aldı. Vəziyyətin təhlükəli olduğunu anlayan Fərrux Yəsar kürəkəni Yaqub padşahdan kömək istəməyə məcbur oldu. Bu kömək və Şirvan döyüşçülərinin hərbi bacarığı nəticəsində Heydər Tabasaranda məğlub edildi. Beləliklə, Səfəvilərin siyasi hakimiyyəti əldə etmək uğrunda hələ XV əsrin ortalarında başlanmış mübarizəsi növbəti müvəffəqiyyətsizliyə uğradı. Yaqubun ölümündən sonra idarə etdiyi dövlət vaxtaşırı baş verən saray çevrilişləri nəticəsində zəifləmişdi. Şahzadələr: Əlvənd Mirzə və Murad Mirzə arasında çəkişmələr baş verirdi.

58. Mənbədə bəhs edilən döyüşün mənbədə qeyd edilməyən nəticələrini tarixi biliklərinizə əsasən müəyyən edin: (Azı iki nəticə)

59. Mənbədə bəhs edilən Dərbənd hücumunun qarşısını almaq üçün birləşən dövlətləri tarixi biliklərinizə əsasən müəyyən edin:

60. Mənbədə bəhs edilən şahzadələr arasında çəkişmələrin nəticələrini müəyyən edin: (Azı iki nəticə)

t.me/BirlikTeam1

## Ədəbiyyat

61. “Sığmazam” (İ.Nəsimi) qəzəlinin məzmununa aid olan doğru fikirləri müəyyən edin.
1. Əruz vəzninin rəcəz bəhrində yazılıb.
2. Lirik qəhrəman cismini bir heç hesab edir.
3. Lirik qəhrəman varlıq və yeri aləməti kimi mənalandırır.
4. Əsərdə insan “gizli xəzinə” hesab edilir.
5. Lirik qəhrəman haqqı bilənin onun zənnə və gümana sığmadığını bildiyini vurğulayır.
A) 1,2,5 B) 1,3,4 C) 3,4,5
D) 1,2,3 E) 2,3,5

62. “Hikmətin fəziləti” (A.Bakıxanov) əsərinə əsasən uyğun fikirləri müəyyən edin.

| Bədii forma | Bədii məzmun |
|---|---|
| 1. Vahid süjet xətti olan əsər nəzmlə yazılıb. | 4. Dünyanın nizamı hünərlə qurulur. |
| 2. Yaxşı insan olduğunda dost da, düşmən də afərin söyləyər. | 5. Qocanın şaha etdiyi təzim onun elmə, biliyə etdiyi təzimdir. |
| 3. Məsnəvi şəklində yazılmışdır, mənzum hekayədir. | 6. İnsana ən lazımlı şey kimi həqiqət mənalandırılır. |

A) 2,4,5 B) 1,5,6 C) 1,3,6
D) 3,4,5 E) 1,3,5

63. Cədvələ əsasən M.P.Vaqifin “Hayıf ki, yoxdur” qoşmasının forma xüsusiyyətləri ilə bağlı uyğunluğu müəyyən edin.

| *Doğru* | *Yanlış* |
|---|---|
| 1. Təbiət mövzusunda yazılsa da, ictimai motivlərə də yer verilmişdir.<br>2. Son bənddə şair özünə müraciət etmişdir.<br>3. Yazıldığı vəznin tələbinə əsasən bütöv söz prinsipi gözlənilmişdir. | 4. Bütün bəndlərdə vahid qafiyə quruluşu mövcuddur.<br>5. Aid olduğu janrın tələbini pozan məqama rast gəlinir.<br>6. Əsərdə şairin kədər, təəssüf hissləri öz əksini tapıb. |

A) 3,4 B) 2,5 C) 1,5
D) 1,6 E) 2,4

64. “Dəhnamə” (Ş.İXətayi) əsərinin məzmununa əsasən doğru fikirləri seçin.
1. Əsər epik növdə yazılıb, təhkiyə aparıcıdır.
2. Əsərdə aşiq obrazına aid olan ziddiyyətli məqama rast gəlmək mümkündür.
3. Məşuqə Səbanın onun qarşısına gələrkən etdiyi izzətli davranışlarının yersiz olduğunu düşünür.
4. Səba Məşuqəni ilk görən zaman onun sanki bir ay olduğunu düşünür.
5. Əsərin süjet xəttinə “Bahariyyə” adlı hissə daxil deyil.
A) 1,3,5 B) 1,4,5 C) 2,3,4
D) 1,3,4 E) 3,4,5

65. “Sultan Səncər və qarı” əsəri ilə bağlı cədvəli tamamlayın.

| | |
|---|---|
| ***“Sultan Səncər və qarı”*** | Əsər əruz vəznində yazılıb, təhkiyə aparıcıdır. |
| | |
| | |
| | |

1. Qarı zülm etdiyi üçün darğaya qəzəblənir və bu zülmü hökmdara çatdırır.
2. Sultan qarının təhdidlərinə qarşılıq verib onu həbs etdirir.
3. Qarı hökmdarın türk olmadığını, hindli quldur olduğunu söyləyir.
4. İnsanların başına gələnləri hökmdara danışan qarı bunların səbəbkarı kimi darğanı görürdü.
5. Əsərə görə, insan aləmi açmağa açar mahiyyətindədir.
A) 2,3,4 B) 1,3,5 C) 1,2,3
D) 3,4,5 E) 1,3,4

66. *“Bülbül oxudu sifəti-hicran,*
*Dəryada dür oldu əbri-neysan”* (Ş.İ.Xətayi)
Nümunənin təhlilinə aiddir:
A) Aşiqin əhvalı hissəsindən bir parçadır.
B) Təsvir vasitələri işlənsə də, ifadə vasitəsi işlənməyib.
C) İkilik şəkildə, məsnəvi formasında yazılıb.
D) Bülbülün xoş nəğmə oxuması təsvir edilir.
E) Nümunədə metafor işlənib, təşbeh işlənməyib.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

67. "Məni candan usandırdı…" qəzəlinin məzmunu ilə bağlı doğru fikri müəyyən edin.
A) Lirik qəhrəman Məşuqənin onu sevdiyindən əmindir.
B) Dərdini Məşuqəyə deməkdən çəkinməyən lirik qəhrəman ahının asimana yetdiyini deyir.
C) Füzulinin rüsvay olmağına səbəb qafil tənəsidir.
D) Lirik qəhrəman qovuşma gecəsi gözündən qanlı yaş axıtdığını dilə gətirir.
E) Şeirdən Məşuqənin lirik qəhrəman haqda düşüncələri barədə məlumat almaq olmaz.

68. "Leyli və Məcnun" əsərinə (M. Füzuli) əsasən cədvəldəki doğru fikirləri müəyyən edin.

| **Ətrafdakı insanların Məcnuna münasibəti** | **Məcnunun ətrafdakı insanlara münasibəti** |
|---|---|
| 1. Valideynləri onun mənəvi azadlıq istəyini başa düşür. | 4. İnsanlar arasında pisliyin çox olduğunu söyləyərək təbiətə üz tutur. |
| 2. Varlı qəbilə başçısının oğlu olduğu üçün atasının yerini tutmasını gözləyirlər. | 5. Ağır sınaqlara və əziyyətlərə məruz qaldığı üçün zəmanəsinin davranış normalarına zahirən tabe olur. |
| 3. Sevdaya düşdüyü üçün onu "məcnun" adlandırırlar. | 6. Leyliyə elçi getmək üçün başqalarından kömək gözləyir. |

A) 1, 2, 3 B) 1, 3, 4 C) 1, 5, 6
D) 2, 5, 6 E) 2, 3, 4

69. X.Şirvaninin "Gənclərə nəsihət" şeiri əsasında cədvəli tamamlayan fikirləri müəyyən edin.

| | |
|---|---|
| **Lirik qəhrəmanın düşüncələri və nəsihətlərinə aiddir:** | Yalnız bəzi adamlarda vəfa olduğunu bildirən lirik qəhrəman vəsiyyət edir ki, bivəfa olmayaq. |
| | |

1. Əgər dostun gül əvəzinə tikan əkərsə, onu tutduğu yanlış yoldan döndərmək borcundur.
2. Lirik qəhrəman bildirir ki, haqq yolunda çalışmaq lazımdır.
3. Nadanın tərifinə aldanmamaq gərəkdir, çünki nadanlar əqrəbtək kor olur.
4. Dünyada ağıl kimi ustad olmadığını bəyan edən lirik qəhrəman ona yüksək qiymət verir.
5. "Əsas olan boyun böyüklüyü deyil, ürəyin təmiz olmasıdır" fikri vurğulanır.

A) 1, 3, 5 B) 2, 3, 4 C) 1, 4, 5
D) 2, 3, 5 E) 1, 2, 5

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

70. "Düratın itməyi" qolu ilə bağlı cədvəldə uyğunluğu müəyyən edin.

| *Doğrudur* | *Yanlışdır* |
|---|---|
| 1. Qara xan Koroğlunun ilxısını öz adamlarına qaçırtdırır. | 3. Qolda satqınlıq edən obrazın müsbət qarşılanmasına yer verilir. |
| 2. Düratın yerini Koroğluya bildirən Qara xanın öz adamlarından biri idi. | 4. Ələmqulu xanla dostluq binası qoyulur, buna görə də ilxı qaçırılır. |

A) 1,3 B) 3,4 C) 1,4
D) 2,4 E) 2,3

71. İntibah dövr Azərbaycan ədəbiyyatına aid ***yanlış*** fikri müəyyən edin.
A) Həm lirik, həm də epik növdə əsərlər yazılır.
B) Əsərlər fars dilində qələmə alınırdı.
C) Təbriz zəlzələsinin acı təəssüratları poemalarda əksini tapmışdır.
D) Bu dövrün ən məşhur şairi N.Gəncəvi idi.
E) Bu dövrdə sənətkarların yaradıcılığında ictimai-siyasi problemlər, humanist ideyalar da öz əksini tapmışdır.

72. "Uruzun dustaq olduğu" boyda ("Kitabi-Dədə Qorqud") hansı hadisə daha sonra baş vermişdir?
A) Qazan xan yorğun atı ilə geri qayıdır.
B) Qazan xan Kafirin Dərbənddə sakin olduğunu öyrənir.
C) Qazan xan oğlunun xəyanət etdiyini düşünür.
D) Qazan oğlunun əsir düşdüyünü qətiləşdirir.
E) Qaragünə Kafirin bayrağını qılınclayıb yerə salır.

73. "Pəri" (M.P.Vaqif) qoşması ilə bağlı doğru fikri müəyyən edin.
A) Azərbaycan qadınını daha uca məqamda görmək istəyən Vaqif gözəlliyə önəm vermişdir.
B) Bu qoşmada Vaqif yaxından tanıdığı gözəlin qafiyədən başının çıxmağı ilə fəxr edir.
C) Pərinin simasının ənlik, kirşana ehtiyacı olduğu deyilir.
D) Ölkə gözəli olan Pəri el-obanın nəzərindən kənarda qalmışdır.
E) Möhürbənddə Pərini günəşə bənzədən Vaqif özünə müraciət edərək belə gözəlləri tərif etməyin gərəkliyini dönə-dönə təkrar edir.

74. Aşağıdakı fikirlərdən hansı diaqramın heç bir hissəsinə uyğun ***gəlmir***?




I “Ağıllı uşaq” nağılı
II “Çahargah” əfsanəsi
A) Verilən suallara müdrik bir obrazın köməyi ilə cavab tapılır.
B) Ağılda uduzan xan güc ilə qalib gəlmək istəyir.
C) Yüksək rütbəli şəxs sual verir.
D) Bir obraz əvvəl tacir, sonra vəzir olur.
E) Xalqa xidməti bər-bəzəkdən üstün tutan obraz sonda ölkədən qaçmalı olur.

75. ***Yanlış*** fikri müəyyən edin.
A) Süjet xəttinin mərhələləri bir-biri ilə əlaqədar olur, biri digərini tamamlayır.
B) Bədii əsərin süjetini təşkil edən hadisələr sabit xətlə inkişaf edir.
C) Ekspozisiya hadisələrin geniş təsvirini verən irihəcmli əsərlərdə daha aydın nəzərə çarpır.
D) Epiqraf, proloq, epiloq anlayışları kompozisiyanın ünsürləridir.
E) Kulminasiya mərhələsi əsərdəki hadisələrin zirvə, təpə nöqtəsidir.

76. “Söz” (M.Füzuli) qəzəlinə aid olan fikirləri müəyyən edin.
1. Yazıldığı şeir şəkli məsnəvi ilə eynidir.
2. Sözün insanı ölümündən sonra da yaşada biləcəyi ifadə olunub.
3. Müəllif sonda özünə müraciət edərək faydalı sözlər danışmağı tövsiyə edir.
4. “Söz hansı qəlbdə yandısa, o qəlbi işıqlandırdı” fikri əsərdə təsvir olunan əsas məqamlardandır.
5. Sözə aid olan sirli xüsusiyyət təsvir olunub.
A) 1,2,5 B) 1,3,4 C) 3,4,5
D) 1,2,3 E) 2,3,5

77. Doğru fikri müəyyən edin.
A) “Dəsmalı ver”, “Əl üstə kimin əl” oyunlarında əşyalardan istifadə olunur.
B) Dini tamaşalar olan şəbihlər daha çox ramazan ayı ilə bağlı olur.
C) Lətifələrdə yumor, satira olsa da, sarkazm olmur.
D) Haqsızlıq, ədalətsizliklə mübarizə motivləri heyvanlar haqqında nağıllarda əksini tapır.
E) Məsəllər atalar sözlərindən fərqli olaraq, ümumiləşmiş ifadələrdir.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

78. N.Gəncəvinin “İskəndərnamə” əsəri ilə bağlı ***doğru olmayan*** fikirləri müəyyənləşdirin.

| İskəndərə peyğəmbərlik verilməzdən **əvvəl:** | İskəndərə peyğəmbərlik verildikdən **sonra:** |
|---|---|
| 1. ...o, səyahətə çıxarkən taxt-tacı oğluna, oğlunu da anasına əmanət edir. | 4. ...Daraya satqınlıq edən iki sərkərdə ilə görüşür, onlarla peyman bağlayır. |
| 2. ...Nil sahilindən keçərək çöllərdə məskən salmağı əmr edir. | 5. ...o, bir dəstə adamın şikayətini nəzərə alıb nahaq qan tökən kəsi çarmıxa çəkir. |
| 3. ...o, aqillərə çalğısız, içkisiz məclis qurdurur. | 6. ...o, Qünnücdən Qülzümə hökmran olduğunu söyləyir. |

A) 1,4 B) 2,6 C) 3,5
D) 2,4 E) 1,5

79. Cədvələ əsasən ***uyğunsuzluğu*** müəyyənləşdirin.

| Ədəbi növlər haqqında ***doğrudur***: | Janrlar haqqında ***yanlışdır***: |
|---|---|
| A) Həyatı əks etdirmə üsuluna görə 3 növə ayrılır.<br>B) Dramatik növ digər iki növdən janr müxtəlifliyi baxımından geri qalır. | C) Şəbihlər lirik növün janrıdır.<br>D) Dastan epik-lirik əsər olma baxımından poema ilə oxşardır.<br>E) Əfsanə, nağıl, rəvayət həm nəzmlə, həm də nəsrlə yazılır. |

80. N.Gəncəvinin “Yaralı bir uşağın dastanı” əsəri haqqında ***səhv*** fikirdir:
A) Əsərdə ağlın gücü ilə çətin vəziyyətdən çıxan obraz var.
B) Uşağın dostları onun quyuya atmaq fikrində idilər.
C) Zəhmət adamlarına hörmət hissi aşılanmışdır.
D) Əsərdə müəllifin təxəllüsünə yer verilib.
E) Dostların dar gündə tanınması məsələsinə toxunulub.

81. “Dərzi şagirdi Əhməd” nağılındakı Əhməd obrazı ilə bağlı ***yanlış*** fikri müəyyən edin.
A) Hər sualı açmağın qarşılığında padşahdan bir tələbi olur.
B) Yuxudan oyatdığı üçün ustasına etirazını bildirir.
C) Birinci suala cavab verdikdən sonra azadlığa buraxılmır.
D) Yuxusu çin olmadan onu kiməsə danışmır.
E) Şah Abbas onun qızı ilə ailə qurmasına əvvəldən razı olur.

82. “Basatın Təpəgözü öldürdüyü boy”da surətlər və onların əməlləri baxımından hansı bənddə uyğunluq gözlənilmişdir?
A) Aruz qoca – Təpəgözün Qıyan Səlciki öldürdüyünü Basata söyləyir.
B) Dədə Qorqud – Təpəgözün istədiklərinin hamısını ona verməyə razı olur.
C) Qapaqqan – Təpəgözün Oğuz elinin yaylağa köçməsinə imkan vermədiyini söyləyir.
D) Sarı çoban – Gölün kənarında Təpəgözün olmasını Bayandır xana çatdırır.
E) Yapaqlı qoca – Oğuz elinə Basatın Təpəgözə qalib gəlməsi xəbərini çatdırır.

83. Nümunədə işlənmiş bədii ifadə vasitələrini müəyyən edin.
*Cahan ki solmayan bir bağça-bağdır,*
*Burda rəvamıdır gülmədən ölmək?!*
*Yazıq o şəxsə ki, qaraqabaqdır,*
*Nə qədər yaraşır insana gülmək!*
1. epitet 2. inversiya 3. metafor
4. təzad 5. bədii sual 6. təşbeh

84. Müqayisə cədvəlinə əsasən ***yanlış*** fikirləri seçin.

| “Leyli və Məcnun” poeması (M.Füzuli) | “Dəhnamə” poeması (Ş.İ.Xətayi) |
|---|---|
| 1. Əruz vəznində, həzəc bəhrində yazılıb. | 3. Baş qəhrəmana kömək edən obrazlar var. |
| 2. Əsərin sonu faciə janrının sonu ilə səsləşir. | 4. Aşiq obrazı insanlara olan qınağı ilə yadda qalır. |
| 5. İkilik şəklində yazılan əsərin hər beytində misralar bir-birilə qafiyələnir.<br>6. Ana dilində yazılan əsərdə alleqorik obrazlar da iştirak edir. | |

85. “Salur Qazanın evinin yağmalanması” boyundakı məzmun ardıcıllığını nəzərə almaqla boş xanaya yazılacaq hadisələri müəyyən edin.

Qazan xanın oğlu Uruz bəyi üç yüz igidlə əli bağlı, boynu bağlı getdi.
↓
1. ..............................................................................
↓
Çoban şəhid olan qardaşlarını dəfn etdi.
↓
2. ..............................................................................
↓
Qazan xan Qaraca çobana ilxıçılıq vədi verdi.

1. Qalın Oğuz bəyləri atlandılar, böyük qoşun Ala dağa ova çıxdı.
2. Gecə yatarkən Qaraca çoban yuxuda qara qayğılı əhvalat gördü.
3. Kafirlər Uruzu tutub qənarə dibinə gətirdilər.
4. Qazan xan yurdunu qurddan xəbər aldı.
5. Qazan bəyin qardaşı kafirin bayrağını qılınclayıb yerə saldı.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

86. Uyğun ***olmayan*** fikirləri müəyyən edin.

| “Həmzənin Qıratı qaçırması” qolu haqqında doğru fikirdir. | “Koroğlu ilə Bolu bəyi” qolu haqqında ***yanlış*** fikirdir. |
|---|---|
| 1. Koroğlunun Ələmqulu xanla dostluq binası qurması artıq bütün aləmə yayılmışdı.<br>2. “Gərək elə adam ola ki, canından keçə, Çənlibelə gedə, ya Qıratı gətirə, ya da başını Koroğluya təslim edə”, - fikirləri Koroğlunun atasının gözlərini çıxartdıran obraza məxsusdur. | 3. “Səhəri gözləyək. Koroğlunun fəndindən baş açmaq olmaz, gecə vaxtı qoşunu tələyə salarıq”-deyən obraz Koroğlunun yanında yeddi il mehtərlik edib.<br>4. Bu əsərdə Xotkarın öz oğlu Bürcü sultanın adı Koroğlu tərəfindən çəkilir. |

87. Şifahi xalq ədəbiyyatının janrlarına əsasən uyğunluğu müəyyən edin.
1. Rəvayət
2. Əfsanə
3. Nağıl
a. “Səməndər quşu”
b. “Astiaq”
c. “Ağıllı uşaq”
d. “Xan sarayı”
e. “Nuh peyğəmbər”

***Xəncər***

İran Azərbaycanının kiçik bir şəhərində yeni açılmış Azərbaycan məktəbində gənc müəllimə Südabə dərs deyirdi. Atası Məşədi Tağı onun müəllim olmağını istəmir, “varlı tacirin qızı uşaqlara dərs deməməlidir” deyirdi. Amma Südabə ana dili, vətənpərvərlik eşqi ilə şam kimi yanırdı.
Bir gün tənəffüs zamanı məktəbdə hay-küy qopdu. İldırım adlı kasıb bir oğlan əlində xəncərlə sinif yoldaşına hücum etmək istəyirdi. Südabə onu saxladı, əlindən aldı xəncəri. Oğlan əvvəl dirəndi, amma sonra ağlayaraq dedi ki, xəncər atasının yadigarıdır, atasını illər əvvəl ajanlar aparıb, taleyindən xəbər yoxdur. Südabə kövrəldi, xəncəri ona qaytardı.
Tezliklə şəhərə şah qoşunlarının gələcəyi xəbəri yayıldı. Atası qızı Tehrana göndərmək istədi, Südabə isə “mən xalq müəlliməsiyəm, qaçmaram” deyib imtina etdi. Atasının ürəyi daş idi, qızını evindən qovdu. Gecə onu şagirdi İldırım anası ilə birlikdə evlərinə götürdü.
Səhər şah əsgərləri məktəbə basqın etdi, Südabəni həbs edib dar ağaclarının qurulduğu

meydana apardılar. Orada siyahı oxunanda İldırım qabağa çıxıb "müəllimədən şikayətim var" dedi, sərhəngə yaxınlaşıb pıçıldadı… və gizlətdiyi xəncəri onun ürəyinə sancdı. Atasının intiqamını alıb meşəyə qaçdı; heç kim onu tuta bilmədi.

88. "Xəncər" əsərindəki İldırım ilə Basat (Basatın Təpəgözü öldürdüyü boy) obrazını müqayisə edin.

| "*İldırım*" obrazı ilə bağlı əsaslandırma | Ortaq xüsusiyyət | "*Basat*" obrazı ilə bağlı əsaslandırma |
|---|---|---|
| | | |

89. Boşluğu tamamlayın və verilmiş variantlardan birini seçib xarakterik xüsusiyyət yazmaqla fikrinizi əsaslandırın.
● Nümunə həyatı əks etdirmə baxımından.......................növdədir.

● Bu baxımdan ortaq olduğu əsər:
a) "Dəhnamə" (Ş.İ.Xətayi)
b) "Gənclərə nəsihət" (X.Şirvani)

90. Nümunədə işlənmiş bədii təsvir və ya ifadə vasitələrinə aid ən az iki nümunə qeyd edin.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

t.me/BilikTeam1